# II. Qarabağ: yaşayan tarixin təzadları

## 4. İşığın ağ cığırları

*Qulu Məhərrəmlinin portret cizgiləri təkcə onun yüksək yaradıcılıq keyfiyyətləri, alimliyi və müəllimliyi ilə məhdudlaşmır. Mən ictimai ideallarla yaşayan, milli dərdlərə biganə qalmayan, xalqın və dövlətin gələcəyi ilə bağlı narahatlıqları dilə gətirməkdən çəkinməyən, ictimai əxlaqın pozulmasına etiraz etməyi bacaran Qulu müəllimi həm də yaşadığımız dövrün böyük şəxsiyyəti və parlaq ziyalısı hesab edirəm.*

***Vasif BABAYEV,***
***kinorejissor, Xalq artisti***

Qulu Məhərrəmlinin 2016-cı il üçün brend olmuş bir cümləsi diqqətimi çəkir: "*İnsan faciəsini şouya çevirən, bunun hesabına reytinq qazanmaq istəyən əyləncəli verilişlər qorxulu viruslardır*". Çox güman ki, professor Azərbaycan telekanallarındakı faciələrdən komediya yapanların verilişlərini nəzərdə tutur. Ancaq Qulu Məhərrəmli kimi söz sahiblərinin, publisistika ustadlarının dəyərli fikirləri bəsit müstəvidə qala bilməz. Eyni mahiyyəti biz böyük dünyanın siyasi arenasında ayrı-ayrı ölkələrin və xalqların taleyinə münasibətdə daha aydın görə bilirik. Dünyanın siyasi rejissorları Şərqdə, Liviyada, Suriyada, İraqda, Əfqanıstanda, Kosovada, Bosniyada, Gürcüstanda və demək, həm də Qarabağda faciələri komediya janrına asanlıqla çevirə bilirlər. Doğrudur, tamaşaçılar çox vaxt bu faciələri göz yaşları ilə yox, sadəcə ironiyalı, istehzalı və iztirab dolu gülüşlərlə seyr edirlər. Qulu Məhərrəmlinin "*İyirmilərin görüşündən Qarabağadək: hər şey mavi, masmavi...*" adlı (13.09.2016) yazısında böyük İyirmilərin bəşərin mənafeyindən çox öz maraqlarına xidmət edən görüşlərinin mahiyyəti ifşa olunur.

Müəllif dünyanın taleyini həll etmək kimi bir missiyanı üzərinə götürmüş böyük dövlətlərin dünya hadisələrinə münasibətində ikili standartları çox yaxşı seçir. Ancaq mətləbə gəlməmişdən əvvəl müşahidə etdiyi dünya mənzərəsini də sözünün önünə gətirir: "*Dünya ekranlarında sayrışan xəbərlər planetin kədərli mənzərəsini yaradır. Baxırsan, məyus olursan, həm də heyrətə gəlirsən: bir tərəfdən təbiət insanlara qarşıdır, o biri tərəfdən də insanlar bir-birinə qənim kəsilib. Təbii fəlakətlər bir yana, siyasət deyilən nəsnənin yaratdığı gizli dalğalar da öz işini çox amansızlıqla görür. Bu məkrli, qaynar dalğaların alov dilləri ara-sıra Avropa və Rusiya çevrəsində şölələnsə də, onun istisi daha çox müsəlman Şərqini, bir də geridə qalmış Afrika ölkələrini qarsır. Siyasət təndirinin hərarətinin yüksəldiyi regionlarda və cəmiyyətlərdə gedən proseslər insan həyatını dəyirman kimi üyüdür. Deyəsən, Allah bəndələrindən kəramətini əsirgəyib, ya nədəndirsə baş verən olayların çoxu bədlik saçır. Tək bizdə yox, ağlıqaralı dünyanın hər yerində belədir, elə bil Yer kürəsini qarğıyıblar, Şər güclü kimi görünür*". Maraqlıdır, müəllif Şərin tüğyan elədiyi bir zamanda Şərin güclü kimi görünməsini də ayrıca vurğulayır. Açığı bu məni sevindirdi. Qulu Məhərrəmli "*Şər güclüdür*" demir, Şərin güclü kimi görünməsindən danışır.

Mən həmişə deyirəm ki, dünyada haqsızların, qəddarların, bəşər nəsli üçün yağıya çevrilmişlərin sayı doğrulardan, haqlılardan yüz dəfə çoxdur. Bəs onda niyə dünya nizamı da pozulmur? Onda gərək Yer üzündə "ümid" deyilən, yaxşı adlanan nə varsa hamısı çoxdan məhv olaydı. Səbəbi budur ki, bir düz yüz əyriyə bərabərdir, ona görə də nizam pozulmur. Demək, dünyanın bətnində nə qədər təpəgöz böyüsə də onun qarşısına çıxa biləcək qüvvənin də doğuşu labüddür. Professor sözünə davam edir: "*Dünyada gedən mənfi tendensiyaları qloballaşma prosesi ilə əlaqələndirmək doğru deyil, çünki qloballaşma bağlı qapıları açaraq birgə qorunmaq instikti yaradır, təhlükələrə qarşı birgə dayanmaq şansı verir Bu proses həm də millətlər, xalqlar, fərdlər, müxtəlif iqtisadiyyatlar və mədəniyyətlər arasında yeni şəbəkələr yaradılmasını sürətləndirərək Şərə müqavimət göstərməyə, onu cilovlamağa kömək edir*".

**(Davamı 9-cu səhifədə)**

# 4. İşığın ağ cığırları

*(Əvvəli 8-ci səhifədə)*

Doğudur, həqiqətən, çox vaxt qloballaşmanı dünyanın tarixində mənfi meyil kimi dəyərləndirmək istəyənlər olur, ancaq Qulu Məhərəmli bu məsələni yetərincə əsaslandırır. Elə sonuncu pandemiya hadisəsi – Covid 19 fəlakəti. Dünyanı eyni cəbhədə, eyni mübarizə mövqeyində birləşdirdi. Biz hələ 12-ci əsrdə *"Xeyir və Şər"* dastanı yaratmış Nizami Gəncəvidən üzü bəri dünyanın düşüncə meydanını iki bir-birinə zidd qüvvənin çarpışma meydanı kimi görürük. Professor özünəməxsus, obrazlı motivlərlə fikrinə aydınlıq gətirir. Nə qədər gözəl ifadə olunur: *"İşığı qorumaqdan ötrü hərəkət həmişə ağ cığırlar açır"*. Təkrar eləməyə dəyər, qoy müəllifin öz düşüncələri ilə fikrimizə bir az da yol açaq: *"Təbii ki, Şərə müqavimət həmişə olmalıdır. İstənilən yerdə işığı boğanlara susqun qalmaq qaranlıq və fəlakət üçün meydanı genişləndirmək deməkdir. İşığı qorumaqdan ötrü hərəkət həmişə ağ cığırlar açır. Bir də məlum Berk qanununa görə, Şərin qalib gəlməsi üçün Xeyiri təmsil edənlərin, yəni yaxşıların hərəkətsiz qalması kifayətdir. Bu mənada söz sahibi olan dövlətlərin – "İyirmilər"in ötən həftə dünyaya düzən vermək üçün Çində keçirilən növbəti görüşü bəşəriyyətə təhlükə yaradan tendensiyaların qarşısını almaq yönündə labüd bir hərəkət idi"*. Şərə qalib gəlməyin əsas modeli kimi professor Xeyirin hərəkətini göstərir. Xeyir və Şər mübarizəsində İyirmilər ədalətli oldumu? Doğrudur, Türkiyə böyük dövlətləri Suriya məsələsində ədalətli olmağa çağırdı. Almaniya və Fransa Ukraynanı müdafiə etdi. Əsas idarəedici isə yenə ABŞ olaraq qalırdı. Qarabağ problemi İyirmilərin müzakirə müstəvisinə daxil olmadı və Qulu Məhərrəmli bunu, əlbəttə, təəssüflə qeyd edir. Bütün bunlar Qarabağ müharibəsinə aparan yolun cığırlarıdır. Türkiyə də, Azərbaycan da artıq gördü ki, Qarabağ problemi üçün nicatı nə İyirmilərdə, nə də bütövlükdə dünya birliyində axtarmağın heç bir əhəmiyyəti yoxdur. ATƏT-in Minsk qrupu isə o vaxt da Xankəndində keçirilən yubiley tədbirlərinə münasibət bildirmirdi. İndi də Rusiya sülhməramlılarının himayəsi altında keçirilən tədbirləri tükənməyən bir sükutla seyr edir. Amma yenə də idarəetmə pultu arxasına keçməyə iştahlıdır. Zənnimcə, daha qatar gedib.

Vaxtı ilə 5 rayon amilini ortaya atan Minsk qrupu ermənilərin mənafeyini qorumaq üçün dəridən-qabıqdan çıxırdı. Professor Qulu Məhərrəmli *"Qarabağ problemində 5 rayon illuziyası"* və bir də *"A.Duqinin ocaq başındakı status-kvo söhbəti haqqında"* publisistik qeydlərində rus siyasətçilərinin aldadıcı manevrlərini ifşa edir. Mətnin mahiyyətindən çox rus siyasətçilərinin Azərbaycana qarşı riyakar mövqeyini müşahidə edərək yazısına gətirən müəllifin xatirə - düşüncələrini oxumaq daha maraqlıdır: *"Qarabağ danışıqlarında Rusiyanı əvvəldən Minsk qrupunda təmsil etmiş Vladimir Kazimirov, yəqin ki, çoxlarının yadındadır. Ona bu problem barədə sual verəndə adam işgüzar görkəm alıb o qədər uzun, yayğın və mənasız danışırdı ki, lap bezirdin. Kazimirovu xatırlayanda indi də onun üçün dəfələrlə mikrofon tutmuş biləklərim sızıldayır. Nə qədər sözünü kəsirdin, nə qədər yönəldici və mahiyyətə aid suallar verirdin, xeyri yox idi, adam yalnız öz istədiyini danışırdı. Düzdür, açıq suallardan da incimirdi, heç vecinə belə almadığı bu sualları adamın əsəblərini tarıma çəkən istehzalı gülüşü ilə qarşılayırdı. Üzbəüz dayananda bu əcaib gülüşə dözmək bir cəhənnəm əzabıydı..."*. Bu balaca xatirə mətnində iki məqam var, birincisi, Qulu Məhərrəmlinin özünün



Qarabağ həqiqəti uğrunda apardığı mübarizədə qətiyyəti, ardıcıllığı; ikincisi isə, Vladimir Kazimirovun timsalında Qarabağ məsələsinə Rusiyanın riyakar mövqeyidir. Və onun riyakar mövqeyini, ümumiyyətlə, Rusiyanın Qarabağ siyasətinin fəlsəfəsini professor bütün çılpaqlığı ilə açır və bir neçə cümlənin içərisinə sığışdıraraq tarixə ərməğan edir: *"Əslində, Kazimirovun missiyası aydın idi: danışıqları uzatmaq, heç kimin qəlbinə dəymədən incə diplomatik ifadələrlə qeyri-müəyyənliyi dərinləşdirmək, erməniləri daim ümidli, mübariz və davakar formada saxlamaq, ehtiyac yarananda isə Azərbaycana təmkin, səbir və illuziyalar üçün mesajlar vermək..."*. Və bundan sonra Kremlin ideoloqu A.Duqini ifşa mövqeyinə çəkir. Onun danışıq tövrü, ədası, ikibaşlı fikir yürütməsi bütövlükdə Qarabağ məsələsində Rusiyanı təmsil etməsinin açıq göstəricisidir. Bir sözlə, Kazimirovun köntöy yolu və Duqinin yalançı pozitivliyə bürünmüş mövqeyi axır ki, Azərbaycanı 44 günlük savaşa gətirib çıxardı.

Professor Qulu Məhərrəmlinin Qarabağ mövzusunda yazdığı çoxlu yazıların sırasında *"Frau Merkelin bir cümləsi"* adlı yazısı da xüsusi yer tutur. Müəllif bu yazını 01.12.2018-ci il tarixdə yazıb. Artıq Azərbaycan Aprel döyüşlərindən keçmişdi.

Doğrudur, Aprel döyüşləri düşmənlə ilk görüş kimi kifayət qədər yaddaqalan oldu. Azərbaycan ordusu ilk sınaqdan uğurla çıxdı. Bu, əlbəttə, siyasətçiləri də, politoloqları da kifayət qədər inam və qətiyyət müstəvisinə çıxarmışdı. Görünür, Qulu Məhərrəmli də mətnə sonra gətirəcəyi cümlənin mahiyyətini ikinci yarımbaşlığa təsadüfi çəkmir, əslində o Frau Merkel vasitəsi ilə Rusiya politoloqlarına da cavab verir. Bu barədə bir qədər sonra. Ancaq indi Qulu Məhərrəmlinin xatirə üslubunda qələmə aldığı publisistikasının şirin cazibəsinə varsaq, daha yaxşı olar: *"Moskvanın Vnukovo hava limanında xüsusi təyyarənin Bakıya uçması rəsmi şəxslərin ləngiməsi səbəbindən 2-3 saat təxirə salınmışdı. Küçəyə çıxmaq mümkün deyildi, çünki dekabr şaxtası adamın iliyinə işləyirdi. Yaxşısı aeroportun kafesində çaydan-kofedən isti bir şey içib qızınmaq idi. Mənim soyuqdan büzüşdüyümü görən dövlət müşaviri, rəhmətlik Vəfa Quluzadə ikinci mərtəbəyə qalxıb çay içməyi təklif etdi"*. İlk baxışdan heç bir siyasi dəyəri olmayan səfər təəssüratıdır. Amma o, Qulu Məhərrəmli olmazdı əgər ilk baxışdan siyasətə dəxli olmayan təəssüratı yazıya nə üçün və necə gətirəcəyini bilməsə: *"Təzəcə əyləşmişdik ki, Rusiyanın Azərbaycanda o vaxtkı səfiri Valter Şoniya da kafeyə daxil oldu və birbaşa Vəfa müəllimə tərəf gəldi. Çox səmimi görüşdülər, yüngülvari zarafatlaşdılar, bu soyuqda çaydan daha münasib qızdırıcı mayelər içməyin vacibliyi barədə "qarşılıqlı maraq doğuran" fikir mübadiləsi apardılar. Sonra rus səfirinin bəndənizə əyri-əyri baxdığını görən Vəfa müəllim məni çox təmtəraqlı şəkildə ona təqdim etdi. Səfirin heç tükü də tərpənmədi, soyuq bir təbəssümlə: "Gözəl tanıyıram, yaxşı jurnalistliyinə sözüm yoxdur, amma bir az anti-Rusiya əhvallıdır, Qarabağ problemindən danışan kimi hər dəfə Rusiyanı atır ortaya, yeri gəldi-gəlmədi bizi günahlandırır"*, - dedi. Təbii ki, mən də bir-iki ağız dedim. Səfirin bir az incik görkəm almasına baxmayaraq Vəfa müəllim şaqqanaq çəkib ucadan güldü. Sonra da guya zarafat edirmiş kimi *"Bəyəm yalan deyir?"* sual cümləsi ilə ona cavab verdi. V.Şoniya da candərdi irişdi və bu il Moskvada şaxtaların çox güclü olmasından söz salıb mövzunu dəyişdi". Qulu Məhərrəmlinin Qarabağ uğrunda savaşın yaddan çıxmayan tarixində belə unudulmaz səhifələr çoxdur. Hər yazıda qoyulan ideya, mübarizə xətti Qulu Məhərəmlinin inam və inadı ilə öz həqiqətini diktə edib. Ancaq bu qeydlərdəki müəllif obrazı onun mənəviyyatca nə qədər sədaqətli döyüşçü olduğuna ən parlaq sübutdur.

Müəllif Angela Merkelin bir cümləsini isə mübarizəsinin əsas xəttinə çox dəqiqliklə tabe tutur: *"Rusiya Moldovada, Gürcüstanda münaqişələr yaradıb. Daha əvvəl isə Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinə start verib. İndi eyni ssenari Ukraynada da təkrarlanır..."*. Görünür, ikili standartlara nə qədər çox meyil etsə də, Avropa Frau Merkelin timsalında Rusiyaya qarşı haqlı bir dözümsüzlük həddinə çatıb. Rusiyanı sanksiyalarla xəbərdar etmək elə də kiçik məsələ deyil. Bu, Rusiyanın nüfuzunun mənəvi sanksiyalarla boğulması deməkdir.

Frau Merkelin bir cümləsi hansısa kluarda ilişib qala bilməz. Bu, Qulu Məhərrəmli demiş, bütün dünyanın eşidə bildiyi həqiqətdir. Əslində Q.Məhərəmli kimi jurnalistlərin, yazıçı-publisistlərin, politoloqların bir əsas xidməti də Frau Merkel kimi siyasətçilərin ifadə etdiyi həqiqətləri dünyaya çatdırmaqdır.

* * *

Beləliklə, Qulu Məhərrəmlinin Qarabağ gündəliyinin kitab nəşrlərində özünə yer almış səhifələri tamamlanır.

Nəticə olaraq belə bir qənaəti mütləq bildirmək istəyirəm. Qarabağ gündəliyi şahidlik edir. Son qərinə ərzində Qulu Məhərrəmli, demək olar ki, hər gün cəbhədə olub, döyüşüb. Qarabağ uğrunda Qarabağ səngərini bir an da olsun tərk etməyib.

Başqalarından fərqli olaraq, yazıçını düşüncə adamı kimi tanıyırıqsa, demək, onun yuxusu da döyüşsüz keçmir, axı o, yuxuda da döyüşür. Çox vaxt yazısının əsas xəttini, sonluğunu, nəticəsini elə yuxu zamanı tapır.

Qulu Məhərrəmli isə düşüncə adamı kimi çox ayıqdır, hətta yuxusunda da ayıqdır.

... Beləcə, Qarabağ uğrunda savaşın daha bir qəhrəmanı ilə Azərbaycana Şuşa zirvəsindən baxırıq.

Qarabağ uğrunda mübarizənin tarixini gələcək nəsillər həm də Qulu Məhərrəmlinin Qarabağ gündəliyindən öyrənəcəklər.

Tarixin bütün səhifələri mötəbərdir, gündəliklərə əsaslanan səhifələri isə daha mötəbərdir.

Tarixə köçürülmüş hər səhifə sabaha salamdır. 30 il ağrılarla yaşadığımız Qarabağ taleyinin sabahlarına salam olsun.

*03.09.2021*